ISSN: 2706-6185
e-ISSN: 2709-4197

DOI: https://doi.org/10.36719/2706-6185/55/46-53

**Sürəyya Allahverdiyeva**
Bakı Dövlət Universiteti
doktorant
https://orcid.org/0000-0001-7489-3874
allahverdiyevasurayya@mail.ru

# M.Ə.Rəsulzadə: Osmanlı imperiyası və Türkiyə Cümhuriyyətində Azərbaycanın dövlətçilik tarixi və ənənələrinin yaşadılması uğrunda mübarizə


## Xülasə

Məmməd Əmin Rəsulzadənin mühacirət həyatı və eləcə də Türkiyə dövrü fəaliyyəti bir çox diplomatik missiya mərhələlərini əhatə edir. İlk mühacirət dövründə yazdığı "İran türkləri" silsiləsi ilə tarixşünaslığımızda yeni bir elmin — "Cənub mövzusu"nun təməlini qoymuşdur. 1918-ci il hadisələri zamanı və ən əsas Azərbaycan Xalq Cümhuriyyətinin qurulması istiqamətində kəskin mübarizə aparmışdır. Mətbuat orqanları vasitəsilə sovet işğalı rejiminin mahiyyətini beynəlxalq aləmdə ifşa etmişdir. Ömrünün son mərhələsində Ankarada "Azərbaycan Kültür Dərnəyi"ni yaradaraq milli mədəniyyət və tariximizin elmi təbliğini davam etdirmişdir. Ümumilikdə Rəsulzadənin Türkiyə irsi "bir kərə yüksələn bayraq bir daha enməz" şüarı əsasında formalaşan dövlətçilik ideologiyamızın özəyini təşkil edir.


***Açar sözlər:*** *Məmməd Əmin Rəsulzadə, Azərbaycan mühacirət irsi, istiqlal məfkurəsi, milli dövlətçilik, sovet imperializmi*

**Surayya Allahverdiyeva**
Baku State University
PhD student
https://orcid.org/0000-0001-7489-3874
allahverdiyevasurayya@mail.ru

# M.A.Rasulzade: The Struggle for the Preservation of Azerbaijan`s Statehood History and Traditions in the Ottoman Empire and the Republic of Turkey


## Abstract

Mammad Amin Rasulzades life in exile, as well as his activities during the Turkey period, encompass numerous stages of diplomatic missions. With the "Iran Turks" series written during his first period of exile, he laid the foundation for a new field in our historiography — the "Southern topic". He fought a fierce struggle during the events of 1918 and, most importantly, toward the establishment of the Azerbaijan Democratic Republic. Through various press outlets, he exposed the true nature of the Soviet occupation regime to the international community. In the final stage of his life, he founded the "Azerbaijan Culture Association" in Ankara, continuing the scientific promotion of our national culture and history. Overall, Rasulzades legacy in Turkey forms the core of our statehood ideology, shaped by the iconic slogan: "The flag once raised will never fall."


***Keywords:*** *Mammad Amin Rasulzade, Azerbaijani diaspora heritage, ideology of independence, national statehood, soviet imperialisim*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

*Qədim Diyar* Beynəlxalq Elmi Jurnal. 2026 / Cild: 8 Sayı: 1 / 46-53 ISSN: 2706-6185
*Ancient Land* International Scientific Journal. 2026 / Volume: 8 Issue: 1 / 46-53 e-ISSN: 2709-4197

## Giriş

*M.Ə.Rəsulzadənin Türkiyədə nəşr edilmiş əsərlərini 3 qrupda təhlil edə bilərik:*

1. 1911–1913-cü illər – Osmanlı imperiyası dövründə mühacir kimi;
2. 1918-ci il 18 iyun – 7 noyabr tarixləri – Azərbaycan Xalq Cümhuriyyətinin xüsusi nümayəndəsi kimi;
3. 1922–1930 və 1947–1955-ci illərdə Türkiyə Cümhuriyyətində mühacir kimi.

M.Ə.Rəsulzadənin Türkiyəyə ilk mühacirəti 1911–1913-cü illərə təsadüf edir (Şimşir, 2019). 1911-ci il iyun–iyul aylarında İranı tərk etdikdən sonra M.Ə.Rəsulzadə İstanbula gedir. Orada “Türk Yurdu” jurnalı, “Türk Ocaqları” təşkilatı ilə sıx əməkdaşlıq edir. İstanbulda olarkən o, Osmanlı imperiyasındakı istiqlal və demokratik hərəkata İran mücahidlərini, İran türklərini də cəlb etmək üçün ciddi fəaliyyət göstərir. M.Ə.Rəsulzadə yaradıcılığının İstanbul dövrünü Yavuz Akpinar, İrfan Murad Yıldırım, Səbahəddin Çağın kimi məşhur türk tədqiqatçıları diqqətlə araşdırmış, onun “Türk Yurdu” və “Səbilürrəşad” (Doğru yol) jurnallarında çapdan çıxmış məqalələrini İstanbulda “İran türkləri” adı altında ayrıca kitab kimi nəşr etmişdilər (Resulzade, 1993). Prof. Y.Akpinar “İran türkləri” əsərinin ön sözündə yazır: “İran türkləri” başlığı altında… 6 məqalə halındakı bu yazıların ən mühüm tərəfi, Türkiyədə ilk dəfə İran türklərinin yaxın keçmişi haqqında geniş məlumat vermələri və o mühiti çox yaxşı bilən bir şəxsiyyətin qələmindən çıxmış olmalarıdır… Nəşr etdiyimiz məqalələrin Azərbaycan üçün də qiyməti böyükdür. Rəsulzadə bir azərbaycanlı türk olaraq, ilk dəfə İran və İran türkləri haqqında münasibət bildirmiş və bu baxımdan da Şimali Azərbaycanda da bu gün artıq tarix tədqiqatlarının xüsusi bir sahəsinə çevrilmiş “cənub mövzusu”nda daima diqqətə saxlanılması vacib dəyərləndirmələr etmişdir” (Resulzade, 1993). Y.Akpinar əbəs yerə yazmırdı ki, bu gün Şimali Azərbaycanda türkçülük və demokratikləşmə düşüncələri güclənərkən, İran türkləri öz problemləri üçün yeni bir çıxış yolu axtararkən, M.Ə.Rəsulzadənin qələmindən çıxmış olan İran və İran türkləri haqqındakı bu məqalələr hamımızın yolunu işıqlandıracaqdır.

**Tədqiqat**

M.Ə.Rəsulzadənin “İran türkləri” məqalələrində başlıca məqsədlərindən biri də Türkiyə cəmiyyətini İranda yaşayan Azərbaycan türklərinin tarixi, vəziyyəti ilə bağlı məlumatlandırmaq idi. O, XX əsrin əvvəllərində 10 milyonluq İran əhalisinin azı 3 milyonunun Azərbaycan türkü olmasını qeyd etməklə yanaşı, İranın şimalında yerləşən Azərbaycanın Güneyinin tarixi hüdudlarını da sözlə təsvir edirdi. Azərbaycan əyalətinin mərkəzinin Təbriz, məşhur şəhərlərinin isə Ərdəbil, Urmiya, Xoy, Dilman (Salmas), Maku, Sulduz, Marağa, Xalxal olması, əhalinin məşğuliyyəti, maldarlıqla məşğul olan Şahsevən, Qaracadağlı, Çələbiyan, Xəmsə kimi ellər barədə qısaca məlumat verir. “İran türkləri” adlanan silsilə məqalələrinin birincisi Azərbaycanın coğrafiyası və qısaca olaraq Azərbaycan türklərinin İran tarixində oynadığı rol haqqında xatırlatmalarla yekunlaşır. O, İranın qədim mərkəzi olan Şirazda belə qaşqayların timsalında xeyli sayda türk əhalinin yaşaması, hətta İranda hakimiyyətdə olan qacarların belə türk olması barədə türk oxuculara xatırlatma edir (Akçuraoğlu, 1928; Rəsulzadə, *İran türkləri*, cilt 1, sayı 4, 1912; Rəsulzadə, *İran türkləri*, 2013). O, “İran türkləri” ilə bağlı üçüncü məqaləsində Azərbaycan türklərinin siyasi vəziyyətinə toxunur. Xüsusilə Azərbaycan türklərinin yaşadığı İranla Rusiya əsarətində olan Azərbaycan türklərini, hətta Osmanlı imperiyasındakı türklərin vəziyyətini müqayisə edən belə bir fikir bildirir: “İranda türklər, nə Rusiyada olduğu kimi məhkum və nə də Türkiyədə olduğu kimi hakim bir millət deyildirlər. İran türkləri əsil iranlı olan farslarla hüquqda müsavi vətəndaş halında bulunuyorlar: eyni haqlara, eyni imtiyazlara haizdirlər, ögəylik çəkməzlər” (Rəsulzadə, *Əsərləri — 5 cilddə*, 2001; Resulzadə, *İran türkləri*, 1912; Rəsulzadə, *İran türkləri*, 2013). O, bunun səbəbini İranda yaşayan türklərin farslarla iç-içə yaşaması, əsrlər boyu İranı idarə etsələr belə dövlətin rəsmi dili kimi fars dilini qoruyub saxlamaları, şiəliyin Azərbaycan türklərini farslaşdırdığını, onların özlərini türkləşmiş fars, yəni əslən iranlı kimi görmələri ilə əlaqələndirir. “İran türkləri” adlı 4-cü məqalədə Azərbaycan türklərinin İranda Məşrutə hərəkatındakı mövqeyi və əhəmiyyətindən bəhs edilir (Rəsulzadə, *Əsərləri — 5 cilddə*, 2001; Rəsulzadə, *İran türkləri*, 1912; Rəsulzadə, *İran türkləri*, 2013).

1913-cü ildə M.Ə.Rəsulzadənin birinci Türkiyə mühacirəti dövrü başa çatır. 1913-cü ildə Romanovlar sülaləsinin 300 illik yubileyi ilə əlaqədar verilmiş ümumi əfv fərmanından sonra Bakıya qayıdır (Yaqublu, 2013). O, 18 iyun – 7 noyabr 1918-ci il tarixində Azərbaycan Xalq

Cümhuriyyətinin xüsusi nümayəndəsi kimi Türkiyədə səfərdə olmuşdur. Təxminən 5 aylıq bu səfər əsnasında Azərbaycanın istiqlal mübarizəsi tarixinə işıq tutan məqalələr qələmə almış və müsahibələr vermişdir. Xüsusilə də onun 26 iyun 1918-ci il tarixində Türkiyədə çap edilmiş "Təsviri-Əfkar" qəzetinə verdiyi müsahibəni qeyd etmək olar. Qəzetdəki təqdimat yazısının mətninə nəzər saldıqda məlum olur ki, M.Ə.Rəsulzadə bir neçə il öncə İstanbul şəhərində olmuş və burada olduğu vaxt "Təsviri-Əfkar" qəzetinin "İslam aləmi üzrə müxbiri" olması da vurğulanır. 22 iyul 1918-ci il tarixində İstanbulda çap edilmiş "Vakit" qəzetində "Qafqaziya işləri: Rəsulzadə Mehmet Emin bəyin bəyanatı" adlı məqalə nəşr olunur (Yaqublu, 2013).

Bu bəyanat "Azərbaycan Heyəti-Mürəxxəsəsi rəisi Rəsulzadə Əmin bəyin mühüm bəyanatı" adı altında 25 iyul tarixində "Yeni məcmuə"də də çap edilmişdir (Rəsulzadə, *Əsərləri — 5 cilddə*, 2001; Rəsulzadə, "Azərbaycan Heyəti-Mürəxxəsəsi rəisi Rəsulzadə Əmin bəyin mühüm bəyanatı", 1918). Bu bəyanatda M.Ə.Rəsulzadəyə Halim Sabit bəy tərəfindən ünvanlanan aşağıdakı suallara cavab verilmişdir: Qafqaz müsəlmanları arasındakı siyasi cərəyanlar və firqələr haqqında məlumat; İttihadi-islam cərəyanının vəziyyəti necədir? İttihadi-islam ətrafında toplananların sünnilik və şiəlik məsələsinə baxışları necədir? Türkçülük cərəyanı nə vaxt başladı və bugünkü hal və vəziyyəti necədir? (Rəsulzadə, *Əsərləri — 5 cilddə*, 2001; Rəsulzadə, "Azərbaycan Heyəti-Mürəxxəsəsi rəisi Rəsulzadə Əmin bəyin mühüm bəyanatı", 1918). O, ilk suala cavabında Qafqaz müsəlmanları arasında milliyyət cərəyanının hakim olmasını və bu cərəyanın iki — türkçülük və islamçılıq — istiqamətində inkişaf etdiyini qeyd etmişdir. Xüsusilə "Türk Ədəmi-Mərkəziyyət firqəsi 'Müsavat'"ı M.Ə.Rəsulzadə türkçülüyü seçən bir partiya kimi təqdim edir. Lakin o, bu partiyanın yalnız türkçülüklə də məhdudlaşmadığını və Azərbaycanın istiqlal mübarizəsində beynəlmiləliyi-islamiyyə fikrini müdafiə etdiyini də vurğulayır. Onun bəyanatında da yazdığı kimi, Müsavatın əsas xətti "türkləşmək, islamlaşmaq və müasirləşmək" idi. Bəyanatda Azərbaycandakı müsəlman bolşeviklər, menşeviklər və müsəlman sosialistləri ittifaqına da münasibət bildirilir. Xüsusilə başlarında Nəriman Nərimanovun durduğu müsəlman bolşeviklərin rus, erməni və digər millətlərdən olan bolşeviklərlə səylərini birləşdirərək Müsavatın milliyyətpərvərliyinə, Azərbaycanın və digər türk və müsəlman muxtariyyətlərinin yaranmasına qarşı mübarizə apardığını yazırdı.

M.Ə.Rəsulzadə Türkiyədə olarkən əldə etdiyi ən mühüm uğurlardan biri, sözsüz ki, Osmanlının Azərbaycan Xalq Cümhuriyyətinə qoşunla yardım etməsinə nail olması olmuşdur. Xüsusilə də Bakının azad edilməsini M.Ə.Rəsulzadə son dərəcə vacib hesab edirdi. O, "İqdam" qəzetində çıxışında "Bakısız Azərbaycan, başsız bədəndir" deyirdi. Bu fikrini "Azərbaycanın Almaniya hökumətinə notası" adlı məqaləsində daha da möhkəmləndirmişdi. Belə ki, 23 sentyabr 1918-ci il tarixində İstanbul şəhərində çap olunan "Vakit" qəzetində M.Ə.Rəsulzadənin Almaniya ilə Sovet Rusiyası arasında neft qarşılıqlı razılaşmasına və Bakının Azərbaycanın bir hissəsi olmadığı iddiasına etiraz əlaməti kimi Almaniya səfir vəkili Konta Valdeburqa verilən notadan bəhs edən "Azərbaycanın Almaniya hökumətinə notası" adlı məqaləsi nəşr edilir (Yaqublu, 2013).

M.Ə.Rəsulzadə 1918-ci il noyabr ayının 7-də İstanbuldan Bakıya qayıdır. Bununla da onun növbəti Türkiyə səfəri başa çatmış olur. M.Ə.Rəsulzadə Türkiyəyə bir daha Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan 2 il sonra – 1922-ci ildə pənah gətirmişdir. M.Ə.Rəsulzadənin 1922-ci ildən Türkiyədə başlanan fəaliyyətini iki mərhələyə ayırmaq olar: birinci mərhələ 1922–1931-ci illəri, ikinci mərhələ isə 1947–1955-ci illəri əhatə edir, yəni 1955-ci ildə vəfatına qədər davam edir. Hər iki mərhələdə o, böyük çətinliklərin öhdəsindən gəlməli olmuşdur. Türkiyə Cümhuriyyətində mühacirətdə olduğu dövrdə Azərbaycan Milli Qurtuluş Hərəkatının ideoloqu M.Ə.Rəsulzadənin istiqlal tariximizdə ən böyük xidmətlərindən biri, sözsüz ki, Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsini elmi və sistemli formada aparan ayrı-ayrı qəzet və jurnallar təsis etməsi idi. 26 sentyabr 1923-cü il tarixindən etibarən məhz onun redaktorluğu altında "Yeni Qafqaziya" jurnalı nəşrə başlayır (Mamulia və Abutalıbov, 2014).

Jurnal 1927-ci ilə qədər fəaliyyətini davam etdirir. 1927-ci ildə SSRİ-nin təzyiqi ilə Türkiyə Cümhuriyyəti hökuməti "Yeni Qafqaziya" jurnalının nəşrini qadağan edir (Şimşir, 2019; Şimşir, *Azerbaycanın istiklal mücadelesi*, 2013).

1923-cü ilin mayında İstanbul şəhərində M.Ə.Rəsulzadənin *Azərbaycan Cümhuriyyəti (keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti)* adlı əsəri çapdan çıxır və həmin il İzmirdə təşkil edilmiş "İzmir İqtisadi Konqresi"ndə "Kitab Bayramı" sərgisində və "İqtisadi Misak" proqramında Atatürk mükafatı ilə təltif edilir (Yaqublu, 2013).

Bu kitab M.Ə.Rəsulzadənin "Azərbaycan" qəzetində nəşr etdirdiyi əsərinin daha təkmilləşdirilmiş və əlavələr edilmiş variantıdır (Rəsulzadə, *Əsərləri-mühacirət dövrü*, 2016). M.Ə.Rəsulzadənin istiqlal mübarizəsini görməmək mümkün deyildi. *Azərbaycan Cümhuriyyəti* əsərinə İ.Stalinin şəxsən münasibət bildirməsi də bunun göstəricisi idi. O, 1923-cü il 16 sentyabr tarixində Azərbaycanın partiya rəhbərlərinə ünvanladığı məktubda M.Ə.Rəsulzadəni "ifşa etmək" üçün onun əleyhinə geniş təbliğat aparılması əmrini vermişdi. Hətta bunun üçün "əks-təbliğat kampaniyasının" əsas tezisləri belə müəyyənləşdirilmişdi (Mamulia və Abutalıbov, 2014). İ.Stalin M.Ə.Rəsulzadə tərəfindən irəli sürülən fikirlərin konkret faktlarla inkar etməyin mümkün olmadığını yaxşı başa düşdüyünə görə onun *Azərbaycan Cümhuriyyəti* əsərinə cavab olaraq tərtib edilməsin nəzərdə tutulan kitabda M.Ə.Rəsulzadəni 1918-ci ilin mart soyqırımları və Şamxor hadisələrinin təşkilatçısı olmaqda, Türkiyənin yardıma getməkdə olan bolşeviklərin Bakını tutmasına əngəl törədərək türklərə xəyanət etməkdə və b. gülünc şeylərdə ittiham etməyi təklif etmişdi (Balayev, 2019). İ.Stalinin narahatçılığı əbəs deyildi. Çünki bu əsər müstəqil Azərbaycanın tarixi dastanı idi.

Bu əsərlər içərisində *Əsrimizin Siyavuşu* əsərini (Rəsulzadə, *Çağımızın Siyavuşu*, 2014) xüsusilə fərqləndirmək lazımdır. Bu əsər 1920-ci ildə – yəni Cümhuriyyətin süqutu vaxtı Azərbaycanda qələmə alınsa da 1923-cü ildə İstanbulda çap edilmişdir. Bu əsər 1928 və 1989-cu illərdə Türkiyədə təkrarən nəşr edilmişdir. Azərbaycan dilində ilk nəşri 1990-cı ildə Bakıda olmuşdur. Bu əsərə yazdığı müqəddiməsində əsərin yazılma məqsədini belə şərh edir: "Əsrimizin Siyavuşu" müəyyən bir məqsədlə, vətənimizin, millətimizin, əfkar və etiqadımızın düşmənlərinə qarşı məxsus bir hüsn-ədavət təvəllid etmək niyyətiylə əvvəlcədən düşünülmüş bir əsər deyildir… "Əsrimizin Siyavuşu" böylə müəyyən bir məqsəd və planla yazılmış deyildir" (Rəsulzadə, *Əsərləri-mühacirət dövrü*, 2016). *Əsrimizin Siyavuşu* əsərində M.Ə.Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyətinin xidmətlərini bir-bir sadalayır. Cümhuriyyətin qısa müddətdə ordu məsələsini həll etdiyini, ərazi bütövlüyümüzü təmin etdiyini, daxili sabitliyi təmin etdiyini, ordumuzun əsasını qoyduğunu, viran qalmış ərazilərin bərpa edildiyini, xalqı maarifləndirmək üçün təhsil sahəsində mühüm işlər gördüyünü şövqlə qeyd edir. Bundan savayı Azərbaycanın müstəqilliyinin Paris sülh konfransında tanınmasına nail olmağını böyük ruh yüksəkliyi ilə xatırlayır (Rəsulzadə, *Əsərləri-mühacirət dövrü*, 2016).

Əsərin sonunda Azərbaycanın istiqlalı uğrunda mübarizənin sönmədiyini qeyd edən, bir kərə yüksələn bayrağın bir daha enməyəcəyinə dair çağırışlar edən M.Ə.Rəsulzadə üzünü gəncliyə tutaraq belə xitab edir: "Ey gənclik!... Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu ... ucaldaraq dedi ki: - Bir kərə yüksələn bayraq bir daha enməz! Bunu deyərkən o bugünkü yetimanə mənzərəni nəzərə almamış deyildi. ... O, sənin o zaman bu bayrağı gənc çiyinlərinə alıb, məsum şəkildə küçə-küçə gəzərək, "irəli, irəli, Azərbaycan əsgəri!"-deyə, əsgər kimi addım atmağını görmüşdü deyə, bu sözü cəsarətlə demişdi. Əlbəttə ki, sən, onun bu ümidini qırmayacaq, bu gün Parlament binası üzərindən Azərilərin yanıqlı yürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə taxacaq... Ya qazi və ya şəhid olacaqsın!" (Rəsulzadə, *Əsərləri-mühacirət dövrü*, 2016).

Demokratiyanın gələcəyini şərh etməzdən öncə "Demokratiya nədir və nədən ibarətdir?" sualına cavab verən M.Ə.Rəsulzadə yazırdı ki, demokratiya şəxsə azadlıq və xalqa aid hakimiyyət əsaslarının tərkibindən yaranan hüquqi bərabərlikdir. Hüquqi azadlıq isə cəmiyyətin şəxsiyyət üzərində təsir və təzyiqini təhdid edən, bunların qarşılıqlı münasibətlərini müəyyənləşdirən müqayisədir. M.Ə.Rəsulzadənin təbirincə desək, demokratiya siyasi baxımdan müxtəlif əqidələrin, sistemlərin bərabər azadlıq və hüquqlarla eyni cəmiyyətin daxilində təvazökar şəkildə yaşamalarına dözümlülük göstərməkdir (Rəsulzadə, *Əsərləri-mühacirət dövrü*, 2016).

"İxtilalçı sosializmin iflası və demokratiyanın gələcəyi" adlı əsərində ideyalarını M.Ə.Rəsulzadə 1929-cu ildə çapdan çıxan *Milliyyət və bolşevizm* əsərində daha da inkişaf etdirir. Bu əsər əslində məqalələr toplusudur. Bu topluda "Bolşeviklərin Şərq siyasəti" və "Milliyyət məsələsində bolşevik nəzəriyyələri" adlı əsərləri öz əksini tapmışdır (Yaqublu, 2013). Bu əsərlərində o, sovet hökumətinin

addımlarını kəskin şəkildə tənqid edir, sovet imperiyasının müstəmləkəçilik siyasətinin əsl mahiyyətini açıqlayırdı. Bolşeviklərin siyasətinin mahiyyətini M.Ə.Rəsulzadə bənzətmə formasında çox gözəl təsvir edirdi. O yazırdı ki, Lenin bir əliylə millətlərə hüquq paylayır, digər əliylə isə payladığı hüququ quldurcasına oğurlayırdı (Rəsulzadə, *Əsərləri-mühacirət dövrü*, 2016).

"Bolşeviklərin Şərq siyasəti" əsəri də M.Ə.Rəsulzadənin Azərbaycan xalqının milli istiqlal mübarizə tarixinin tədqiqi istiqamətində gördüyü işlərə nəzər salmaq baxımdan son dərəcə dəyərlidir. Bu əsərin xüsusilə "Milli istiqlal hərəkatları və bolşevizm" adlı bölməsini qeyd edə bilərik. Bu bölmədə milli istiqlal hərəkatının əsas qayəsi kimi millətin ortaq maraqlarını xarici işğal və ya istismar əleyhinə qorumaq olduğu qeyd olunur. Bolşevizmə görə isə ortaq mənafeyi olan bir millət ola bilməz. Ona görə də M.Ə.Rəsulzadə yazırdı ki, hər hansı bir kommunist müstəmləkə və məhkum millətlərində olsa belə, milli birlik və milli mənafe uğrunda mübarizə apara bilməz (Rəsulzadə, *Əsərləri-mühacirət dövrü*, 2016).

Çünki fəhlənin vətəni yoxdur, kosmopolitdir. Digər tərəfdən də kəndliyə torpaq verib onu məhsuldan məhrum edən kommunizm, Şərqdə istiqlal hərəkatını gücləndirməklə yanaşı, bu hərəkatın təbii nəticəsi kimi ortaya çıxan istiqlala dözə bilməzdi və dözmürdü də. Rusiyanın simasında kommunizm təhlükəsinin mövcudluğunu vurğulayan M.Ə.Rəsulzadə bu təhlükənin hətta Şərqdə milli cərəyanlar haqqındakı hərəkət tərzini də dəyişdirdiyini yazırdı (Rəsulzadə, *Əsərləri-mühacirət dövrü*, 2016).

Bolşevizmin Şərq siyasəti ilə bağlı fikirlərini ümumiləşdirərək M.Ə.Rəsulzadə belə qənaətə gəlir ki, bolşevizm mübaliğəli fikirləri və boş vədləri ilə bəzilərini yolundan azdıra bilər. Belə bir zaman çərçivəsində də milli demokratiyalar üçün təhlükə doğuran bir cərəyan qara irticadan daha çox məhz qızıl irticadır. Hətta kommunizm fikirlərinə görə kommunizmdən fərqli olan bəzi zümrələri belə bacardıqca istifadə edirdi (Rəsulzadə, *Əsərləri-mühacirət dövrü*, 2016). Ona görə də M.Ə.Rəsulzadə kommunizm təhlükəsinə qarşı bütün millətləri ehtiyatlı olmağa çağırırdı.

M.Ə.Rəsulzadənin Türkiyədə çapdan çıxmış ən dəyərli əsərlərindən biri də *Qafqaziya türkləri* adlı əsəridir. Bu əsər ilk dəfə olaraq türkoloq Yusif Akçuraoğlunun 1928-ci ildə nəşr etdiyi *Türk İli* adlı illik məcmuəsində çap olunub (Akçuraoğlu, 1928; Rəsulzadə, *Əsərləri-mühacirət dövrü*, 2016; Rəsulzadə, *Kafkasya türkleri*, 1993; Rəsulzadə, *Qafqaz türkləri*, 2012). Bu əsərin M.Ə.Rəsulzadə yaradıcılığının şah əsərlərindən biri olduğunu desək, yanılmarıq. 4 hissədən ibarət əsərdə "Tarixə bir baxış" (5 bölmədə), "Rus istilasında yüz il" (5 bölmədə), "Azərbaycan Cümhuriyyəti" (17 bölmədə) və "Dağıstan Cümhuriyyəti" (6 bölmədə) barədə ətraflı məlumat verilmişdir.

Bu əsər Qafqaz türklərinin tarixinə və Azərbaycan türklərinin Qafqazın taleyində oynadığı rola dair fundamental tədqiqat əsəridir. Bu əsər həm də Azərbaycanın dövlətçilik tarixi də adlandırıla bilər. Əsərin ilk hissəsi "Tarixə bir baxış" adlanır. Bu hissədə "Qafqaziya xəritəsinə bir nəzər", "Türk ünsürünün Qafqaziyada yerləşməsi", "Qafqaz və Azərbaycan türklərinin qövmi ənasiri", "Azərbaycan və Türk Qafqaziyanın siyasi müqəddəratı" və "Qafqaziyada türk və islam xanlıqları" adlanan bölmələr yer almışdır. Əsərinin ilk hissəsində M.Ə.Rəsulzadə Qafqazın xəritəsinə nəzər salaraq 72 milləti ilə məşhur olan bu bölgənin şərq və cənubunda sarı rənglə verilmiş hakim bir rəngə diqqəti yönəldir və yazır ki, bu rənglə müsəlman millətinə işarə edilmişdir.

Türklərin hal-hazırda məskun olduqları Qafqaz torpaqlarının ən qədim zamanlardan bəri sakinləri kimlər idi? sualına cavab verən M.Ə.Rəsulzadə ilk öncə Qafqazı sak, kimmer, massaget, hun, ağaçəri, xəzər, səlcuq, qıpçaq türklərinin zamanla yurd etməsinə qısa şəkildə nəzər salır. O, atabəylərin də qıpçaq türkü olduğunu, onları bir digər türk qövmü olan xarəzmşahların, XIII–XIV əsrlərdə isə türk-moğol istilasından sonra Ağqoyunlu, Qaraqoyunlu, Səfəvi kimi türk sülalələrinin Azərbaycan ilə Şərqi Qafqazda hökmran olduğunu qeyd edirdi (Rəsulzadə, *Əsərləri-mühacirət dövrü*, 2016). "Rus istilasında yüz il" adlanan əsərin ikinci hissəsində M.Ə.Rəsulzadə Şərqi Qafqazda çarizmin müstəmləkə siyasətindən, Qafqaz türklərində ədəbi və milli intibahdan, 1905-ci il inqilabından sonra Qafqazda vəziyyətdən, Qafqaz türklərində siyasi məfkurələrdən və 1917-ci il inqilabı ərəfəsində Qafqazda vəziyyətdən bəhs edir (Rəsulzadə, *Əsərləri-mühacirət dövrü*, 2016).

M.Ə.Rəsulzadə bu əsərində 1905-ci il rus inqilabından sonrakı tarixi Azərbaycan milli istiqlal mübarizəsi tarixində xüsusi mərhələ kimi fərqləndirir. Onun bu əsərində 1905-ci ildən sonrakı

dövrünə ayrıca yer ayırması da buna işarədir. Həqiqətən də "Qafqaziya türkləri" əsərinin bu bölməsindən göründüyü kimi, 1905-ci ildən sonra Azərbaycanda ictimai-siyasi, mədəni həyatda bir intibah dövrü yaşanmışdır. M.Ə.Rəsulzadə bu dövrdən bəhs edərkən Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Məhəmməd Hadi, Əhməd Cavad, Hüseyn Cavid, Üzeyir bəy Hacıbəyov, Əliabbas Müznib, Sabir Tahirzadə, Abdulla Şaiq, Abbas Səhhət və başqalarının adlarını sadalayaraq bütövlükdə 1905-ci il ixtilalının "Qafqaziya türklüyündəki milli qüvvətlərin inkişafı içində şayani-təqdir (təqdirəlayiq) bir məbdə (başlanğıc) təşkil" etdiyini yazırdı (Rəsulzadə, *Əsərləri — mühacirət dövrü*, 2016). Mətbuat tariximizdə yeni səhifə açan "Həyat", "İrşad", "Açıq söz", "Molla Nəsrəddin", "Füyuzat" kimi mətbu orqanlarının istiqlal mübarizəsindəki xidmətlərindən bəhs edən M.Ə.Rəsulzadə bütövlükdə 1905-ci il inqilabından sonrakı dövrü belə dəyərləndirirdi: "türk cəmiyyəti iqtisadi istehsal qüvvətlərini toplayaraq həyat və rəqabət meydanına çıxıyor və bu rəqabət həmləsi artdıqca kəndisinə dar gələn çarlıq üsuluna qarşı ədəmi-məmnuniyyəti də çoxalıyor, getdikcə liberallaşıyor və ixtilalpərvər oluyordu" (Rəsulzadə, *Əsərləri — mühacirət dövrü*, 2016).

M.Ə.Rəsulzadənin Türkiyədəki növbəti mühacirət dövrü fəaliyyəti 1947-ci ildən başlanır və onun ömrünün sonuna qədər davam edir. O, 8 iyul 1947-ci il tarixində Türkiyədəki dostlarına məktublar yazır. Həmdullah Sübhi Tanrıövər də daxil olmaqla onun dostları Türkiyə Cümhuriyyətinə qayıtmasından ötrü Xariciyyə vəkili ilə görüşərək razılıq əldə edirlər. Həmin dövr Türkiyə Prezidenti İsmət İnönünün sərəncamı əsasında M.Ə.Rəsulzadənin Türkiyə Cümhuriyyətinə qayıdışına icazə verilir və M.Ə.Rəsulzadə Türkiyə vətəndaşlığına qəbul olunur və 1947-ci ilin sentyabr ayında Türkiyəyə qayıdır. 2 fevral 1949-cu il tarixində Ankara şəhərində "Azərbaycan Kültür Dərnəyi"ni təşkil edir. 1949-cu ildə isə "Azərbaycan Kültür Gələnəkləri" kitabını çap etdirir. Bu əsər 1949-cu il 28 may tarixində Ankarada Azərbaycan istiqlalına həsr olunmuş konfransdakı eyni adlı geniş məruzəsinə əsaslanır. Konfransdakı çıxışında M.Ə.Rəsulzadə bütün mədəniyyətlərin yaranışını 3 böyük amilin qarşılıqlı təsirləri ilə əlaqələndirir. O, ilk olaraq coğrafi amil kimi vətəni, etnoqrafik amil olaraq milləti, mənəvi amil kimi isə mədəniyyəti qeyd edir və bütövlükdə Azərbaycanın Yaxın Şərqdə mühüm strateji mövqedə yerləşdiyini vurğulayır (Yaqublu, 2013).

1950-ci ildə M.Ə.Rəsulzadənin *Çağdaş Azərbaycan ədəbiyyatı* əsəri çapdan çıxır (Yaqublu, 2013). Bu əsərdə o, Hüseyn Cavidin, Əhməd Cavadın, Cəfər Cabbarlının və digərlərinin məqalələrindəki sətiraltı mənalar milli ruha bağlılığı ifadə edirdi. Hüseyn Cavidin məqalələrində siyasi motivlərin gücünü xüsusi olaraq qeyd edən M.Ə.Rəsulzadə yazırdı ki, bolşeviklər məsələni sonradan başa düşərək onun pyeslərinin tamaşaya qoyulmasını qadağan edirlər və şairə tənqidlər yağdırırlar (Yaqublu, 2013).

M.Ə.Rəsulzadə bu əsərdə dünya tarixinin xülasəsini haqq ilə nahaqqın, azadlıqla əsarətin mübarizəsinin bir təzahürü adlandırır və yazır ki, bir tərəfdən azadlıq və demokratiya, o biri tərəfdən də totalitarizmlə kommunizm cəbhəsinə ayrılmış bugünkü dünyanın mənzərəsi həmin mübarizədə yeni qarşılaşma anlamına gəlirdi. Daha sonra o, fikirlərini ümumiləşdirərək yazırdı ki, bu mübarizədə milli Azərbaycan türklüyünün yeri çoxdan məlumdur. Taleyini azadlıq sevən millətlər və mədəniyyət dünyası taleyi ilə bağlamış Azərbaycanın azadlıq və demokratiya cəbhəsində əldə edəcəyi qəti zəfərə heç vaxt şübhə edilməməlidir (Rəsulzadə, *Əsrimizin Siyavuşu*, 1991).

1950-ci il 28 may tarixində M.Ə.Rəsulzadə "Çağdaş Azərbaycan tarixi" mövzusunda məruzə də etmişdir. Bu məruzə 1951-ci ildə Ankarada çap edilmişdir. Bu əsərdə M.Ə.Rəsulzadənin də qeyd etdiyi kimi, həmin dövr üçün obyektiv şəkildə daha az tədqiq edilən 1920-ci ildən sonrakı dövrə dair çox dəyərli məlumatlar verilmişdir. Bu əsərdə Rəsulzadə milli istiqlal mücadiləsinin gizli formada də davam etdiyini, gizli bəyannamə və qəzetlər nəşr edildiyini vurğulayır.

M.Ə.Rəsulzadə yazır ki, bolşevik leksikonu Azərbaycanın bütün vətənpərvərlərini müsavatçı adlandırırdı və müsavatçılıq vətənpərvərliyə sinonim idi. Bolşeviklər Azərbaycanda milli istiqlal atəşini söndürməyə çalışsalar da, buna uzun illər sərf etməli olmuşdular. Bu məqama toxunan M.Ə.Rəsulzadə yazırdı ki, bolşeviklər nə qədər "milliyyətçiliyi yox etdik" desələr də, bu barədə bir çox bəyanatlar versələr də, son illərə qədər sovet mətbuatı və hökuməti Azərbaycan vətənpərvərliyinin rəmzinə çevrilmiş müsavatçılıq əleyhinə şiddətli mübarizə aparmağa davam etmişdir (Rəsulzadə, *Əsrimizin Siyavuşu*, 1991).

"Çağdaş Azərbaycan tarixi" əsərində diqqəti cəlb edən bir maraqlı məqam M.Ə.Rəsulzadənin "Tarixin əsil materialını təşkil edən yeni Azərbaycan nəsli nə vəziyyətdədir?" sualına cavab axtarışıdır. O, Berlində azərbaycanlı əsirlərlə söhbətləri əsasında aldığı məlumatları təhlil edərək yazırdı ki, Azərbaycanda həmin illərdə yalnız Oktyabr inqilabı və Azərbaycanın sovetləşdirildiyi gün bayram kimi qeyd edilirdi. Milli ruh sahibi olan ziyalılarımızı məhv edən və mədəniyyətimizin formasını dəyişdirməyə çalışan sovet rəhbərliyi Azərbaycanın türk-müsəlman dünyasıyla mövcud ən son mənəvi əlaqələrini da qopartmaq niyyətində idi (Rəsulzadə, *Əsrimizin Siyavuşu*, 1991). Bununla belə, M.Ə.Rəsulzadə əsərinin sonunda ümidsizliyə qapılmayaraq Azərbaycanın yenidən öz istiqlalını əldə edəcəyinə olan inamını ifadə edirdi. Bütövlükdə, qısaca nəzərdən keçirdiyimiz "Çağdaş Azərbaycan tarixi" əsəri Azərbaycanın 1920–1930-cu illər tarixi ilə bağlı dəyərli tədqiqat əsəridir.

M.Ə.Rəsulzadə "Stalinlə ixtilal xatirələri"ndə Dərbəndin şimaldan gələn hücumların qarşısını almaq üçün tikilən sədd olmasını qeyd etməklə onun tarixi Azərbaycan şəhəri olmasını bir cümlə ilə ifadə edirdi. M.Ə.Rəsulzadənin bu əsərində Azərbaycan hüdudlarına dair bu cür maraqlı ifadələrə az-az da olsa yer verilir. M.Ə.Rəsulzadə ilə Moskvada görüşlər vaxtı da maraqlı dialoqlar baş tutmuşdur. Xüsusilə millətçilik ətrafında etdikləri söhbətlər tədqiq etdiyimiz problem baxımdan da mühüm əhəmiyyət kəsb edir. Belə ki, İ.Stalinin M.Ə.Rəsulzadəyə xitabən dediyi "Azərbaycanda bir az hökumət etdiniz. Fəqət çox dərin bir iziniz qalmışdır. Bu izlə hələ də mübarizədəyik... Xüsusilə ziyalılar millətçilik ruhu ilə aşılanmışdır, - dedi və sonra üzünü şəxsən mənə çevirərək: - Sizcə, bu millətçilik təsirinin əsas amili nədir?" sualına cavabı qısa və aydın olmuşdur: "Millətçilik deyilən başqa bir insan birliyinin öz varlığını müdafiədən başqa bir şey deyildir" (Rəsulzadə, *Stalinlə ixtilal xatirələri*, 1991).

Bütövlükdə, *Bir türk milliyətçisinin Stalinlə ixtilal xatirələri* əsəri M.Ə.Rəsulzadə yaradıcılığının ən mühüm son əsərlərindən biri oldu. Ümumiyyətlə, İ.Stalinlə görüşdə bu gün belə dillər əzbəri olan bir dialoq hər dəfəsində paylaşılır və xatırlanır.

M.Ə.Rəsulzadənin Türkiyə dövrü fəaliyyətini ümumiləşdirmiş olsaq, bu dövrü Azərbaycan istiqlalı uğrunda mübarizə tarixinin xüsusi bir dövrü kimi fərqləndirməliyik. Bu dövrdə istər tariximiz, istərsə də mədəniyyətimizlə bağlı onun yazmış olduğu çoxsaylı əsərlər bütövlükdə dövlətçilik tariximizin, ənənələrimizin yaşadılmasına xidmət etmişdir.

## Ədəbiyyat

1. Akçuraoğlu, Y. (1928). *Türk yılı. Türk ocaqları* mərkəzi heyəti tərəfindən nəşr olunmuşdur. Yeki Mətbəə.
2. Balayev, A. (2019). *Məmməd Əmin Rəsulzadə: Qürbətdə Vətən davası, 1922–1943*. Pergament Y.E.
3. Mamulia, G., & Abutalıbov, R. (2014). *Strana ogney. V bor'be za svobodu i nezavisimost': Politicheskaya istoriya azerbaydzhanskoy emigratsii, 1920–1945 gg.* CBS.
4. Rəsulzadə, M.Ə. (1912). İran türkleri. *Türk yurdu*, *2*(6), 551–556.
5. Rəsulzadə, M.Ə. (1912). İran türkleri. *Türk yurdu*, *2*(9), 548–556.
6. Resulzade, M.E. (1912). İran türkleri. *Türk yurdu*, *1*(4), 106–111.
7. Rəsulzadə, M.Ə. (1918, 25 iyul). Azərbaycan Heyəti-Mürəxxəsəsirəisi Rəsulzadə Əmin bəyin mühüm bəyanatı. *Yeni məcmuə*, №54, 26–28.
8. Rəsulzadə, M.Ə. (1991). *Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi*. Gənclik.
9. Rəsulzadə, M.Ə. (1991). *Stalinlə ixtilal xatirələri*. Elm.
10. Rəsulzadə, M.Ə. (2001). *Əsərləri* (Cild 2). Şirvannəşr.
11. Rəsulzadə, M.Ə. (2012). *Qafqaz türkləri* (Y. Türkel, İşləyib çap edib). Təknur.
12. Rəsulzadə, M.Ə. (2013). *İran türkləri* (Y. Türkel, İşləyib çap edib). Təknur.
13. Rəsulzadə, M.Ə. (2014). *Çağımızın Siyavuşu*. Təknur.
14. Rəsulzadə, M.Ə. (2016). *Əsərləri (Mühacirət dövrü)* (Cild 1). OL npkt.
15. Resulzade, M.E. (1993). *İran Türkleri: Türk Yurdu ve Sebilürreşad'daki yazıları* (Y. Akpınar, İ. M. Yıldırım, & S. Çağın, Haz.). Türk Dünyası Araştırmalar Vakfı.

16. Resulzade, M.E. (1993). *Kafkasya türkleri* (Y. Akpınar, İ. M. Yıldırım, & S. Çağın, Haz.). Türk Dünyası Araştırmaları Vakfı.
17. Şimşir, S. (2013). *Azerbaycanın istiklal mücadelesi*. Alioğlu Matbaacılık.
18. Şimşir, S. (2019). *Mehmet Emin Resulzadenin Türkiyedeki hayatı, faaliyetleri ve düşünceleri*. Türk Kültürünü Araştırma Yayın.
19. Yaqublu, N.Q. (2013). *Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası*. Kitab Klubu.

Daxil oldu: 23.10.2025
Qəbul edildi: 09.01.2026